# Dünya siyasətçiləri Azərbaycanın dövlət müstəqilliyinə böyük hörmətlə yanaşırlar

***İftixarla qeyd edirik ki, milli dövlətçiliyimizin zəngin tarixi vardır. Təbii ki, tarix dəyişdikcə baş verən ictimai-siyasi proseslər və müharibələr zaman-zaman Azərbaycan dövlətçiliyinə də ağır və sarsıdıcı zərbələr vurmuşdur. Ancaq fakt ondan ibarətdir ki, ötən əsrin ikinci onilliyində yaratdığımız müstəqil, demokratik Xalq Cümhuriyyətinin təməlləri üzərində bərpa etdiyimiz bugünkü Azərbaycan Respublikası nəinki regionda və Avrasiyada, hətta, bütün dünyada söz sahibi olan dövlətlərdən birinə çevrilmişdir.***

***Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



Bu gün Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasına, Avropa Şurası Parlament Assambleyasının Nazirlər Komitəsinə, Qoşulmama Hərəkatına, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik edən, dünyanın azsaylı ölkələrinin təmsil olunduğu "kosmik ailəyə" üzv olan, hər il paytaxtında və əyalət şəhərlərində bir neçə beynəlxalq tədbirin evsahibliyinin öhdəsindən məharətlə gələn, ən başlıcası işğal altında qalan ərazilərini düşmən tapdağından təmizləməklə BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməyi bacaran qüdrətli dövlətə çevrilmişdir.

Dünyanın bütün xalqlarının qəbul etdiyi həqiqətdir ki, dövlət üçün müstəqillikdən, həmin dövlətin vətəndaşı üçünsə azadlıqdan üstün heç nə yoxdur. Azərbaycan xalqı da azad yaşayış, müstəqil dövlət uğrunda uzun və mübarizələrlə dolu bir yol keçmiş, qəhrəmanlıq salnaməsi yazmışdır. Xalqımız 1918-1920-ci illərdə müsəlman Şərqində ilk parlamentli, demokratik, dünyəvi dövlət qurmuş, lakin xalqımızın böyük mübarizələr, savaşlar sayəsində nail olduğu bu müstəqillik uzun sürməmiş, cəmi 23 ay yaşamışdır. Lakin bu qısa tarix öz əhəmiyyəti baxımından xalqımızın qan yaddaşına əbədi həkk olunmuşdur. Mövcud olduğu az müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlarını konstitusion hüquqlarla təmin etmiş, daxili quruluşundan asılı olmayaraq, bütün ölkələrlə münasibətləri qarşılıqlı faydalılıq əsasında yaratmağa çalışmışdır.

Prezident İlham Əliyev 2018-ci il may ayının 28-də Bakıdakı Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan rəsmi qəbuldakı nitqində demişdir ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir.

Xatırladaq ki, ötən ilin payızındakı 44 günlük Vətən müharibəsindəki uğurları ilə dünya hərb tarixinə özünəməxsus səhifələr yazan Azərbaycan Ordusu məhz ilk müstəqil dövlətimizin fəaliyyətə başlamasından keçən ikinci ayda formalaşdırılmışdır. Həmin ordu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrinin, işğalın dan azad etmiş və qədim tarixi şəhərimizi Azərbaycan xalqına qaytarmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən elə həmin il yaradılan sərhəd dəstəsi bu gün regionun ən mükəmməl anoloji silahlı qüvvələri kimi tanınır. Cümhuriyyət dövründə Gəncənin tarixi adı özünə qaytarılmış, yenicə formalaşdırılmış parlament tərəfindən 200-dən çox qanun qəbul edilmişdir ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Həmin qısa dövrdə Bakı Dövlət Universiteti yaradılmışdır və Azərbaycan dili – ana dili dövlət dili kimi qəbul edilmişdir.

Yəni biz bu tarixi faktı nəinki əlamətdar gün, hətta, ən möhtəşəm bayram kimi qeyd etməkdə tamamilə haqlıyıq. Sevindirici haldır ki, bu bayramı hər il dünyadakı bütün dostlarımızla birlikdə qeyd edirik. Hər il 28 May ərəfəsində Azərbaycan Prezidentinin ünvanına Amerika Birləşmiş Ştatları, Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası, Çin Xalq Respublikası, Türkiyə Cümhuriyyəti... onlarca digər ölkənin dövlət başçısı və aparıcı beynəlxalq təşkilatların rəhbərləri tərəfindən səmimi dost təbrikləri gəlir.

Bugünkü Azərbaycan reallıqlarından biri də odur ki, dünya ölkələri təhlükəsizlik, enerji və demokratik idarəetmə məsələlərində Azərbaycanla birgə çalışmağa davam etmək əzmindədirlər. Bunu cənab Cozef Baydenin dövlət başçımıza məktubları da sübut edir. Yaxud, Almaniya Prezidenti Frank – Valter Ştaynmayerin məktubunda deyildiyi kimi, dünyada davam edən COVID-19 pandemiyasına qarşı mübarizədə Almaniyanın Azərbaycanla birgə fəaliyyəti ümumi işə töhfə verə bilər. Bundan başqa, Çin Xalq Respublikasının sədri Si Cinpinin məktubunda qeyd edilir ki, "Bir kəmər, bir yol" müştərək layihəsi üzrə əməkdaşlığın dərinləşməkdə davam etməsi, COVID-19 pandemiyasına qarşı birgə mübarizədə əldə olunan nəzərəçarpacaq nəticələr Azərbaycanın haqq yolunda olduğunu göstərir.

Yeri gəlmişkən, ölkənin kütləvi informasiya vasitələrinin yaydığı məlumatlardan görürük ki, builki təbriklərin önündə məhz ABŞ Prezidenti cənab Cozef Baydenin məktubu dayanır. Bu da təsadüfi deyil.Çünki Azərbaycanın müstəqilliyinin bərpa edilməsindən keçən 30 il ərzində Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası xalqlarımız arasında əlaqələri gücləndirərək, təhlükəsizlik, enerji və demokratik idarəetmə məsələlərində birlikdə çalışıblar.

Prezident Cozef Baydenin Respublika Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə göndərdiyi təbrik məktubunda qeyd edilir ki, Amerika Birləşmiş Ştatları ötən il Cənub Qaz Dəhlizinin işə salınması ilə Azərbaycanın Avropanın enerji şaxələndirilməsinə verdiyi töhfələri və bu il Xəzərdəki yatağın Türkmənistanla birgə kəşfiyyatına və işlənməsinə dair imzaladığı Anlaşma Memorandumunu qətiyyətlə dəstəkləyir: "Biz Azərbaycana NATO-nun Əfqanıstandakı missiyasına və terrorla mübarizə səylərinə verdiyi 20 illik dəstəyə görə minnətdarıq. ATƏT-in Minsk qrupunun həmsədri olaraq münaqişənin uzunmüddətli siyasi həllinə dair danışıqlarda kömək etməyə sadiq qalırıq".

Yeri gəlmişkən, Cozef Bayden builki Novruz Bayramı münasibətilə də Azərbaycan Prezidentinə təbrik məktubu göndərmişdi. Xatırladaq ki, Prezident İlham Əliyev son 18 ildə gənc müstəqil Azərbaycan dövlətinin xarici siyasətinə yeni çalarlar gətirmişdir və bunun dünya ictimaiyyət tərəfindən yüksək qiymətləndirildiyi göz qabağındadır. Elə ABŞ-ın yeni Prezidenti Cozef Baydenin dövlət başçımıza bu il mart ayının 18-də – Novruz bayramı münasibətilə göndərdiyi təbrik məktubu və aprelin 28-də ABŞ dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə zəng edərək tərəfləri maraqlandıran bir sıra məsələləri müzakirə etməsi də məhz xarici siyasətimizdəki müsbət tendensiyaların əks-sədası kimi qiymətləndirilir.

Nəhayət, qeyd edək ki, bu ilin payızında Azərbaycanın müstəqilliyinin 30-cu ilini qeyd edəcəyik. Həmin otuz ildə qazandığımız nailiyyətlər – təkcə regionda deyil, ümumilikdə dünyada çəkisi və rolu artan, bütün sahələrdə sürətli tərəqqiyə nail olmağımız, milli maraqlarımız naminə tarixi ədalətin bərpa edilməsində uğur qazanmağımız dövlət dünya ictimaiyyətinin görkəmli simaları tərəfindən də etiraf edilir və təqdir olunur.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***